BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2010*

# FƏRHAD AĞAZADƏ İRSİNİN TƏDQİQİNƏ BİR NƏZƏR

**Y.V.QƏHRƏMANLI**
***Bakı Dövlət Universiteti***
***nagiyeva _ y@box.az***

*Bu məqalədə fəal ictimai xadim , görkəmli dilçi, bacarıqlı müəllim, təcrübəli metodist , publisist və yeni latın qrafikalı əlifba uğrunda yorulmadan mübarizə aparan Fərhad Ağazadənin zəngin irsinin öyrənilməsi tarixinə qisa nəzər salınmışdır.*

XX əsrin əvvəllərində Azərbaycanda məktəb, maarif və mədəniyyət cəbhəsinin ən fəal mübarizlərindən biri Fərhad Ağazadə (1880-1931) olmuşdur. O, 30 illik müəllimlik fəaliyyəti dövründə özünü fəal ictimai xadim, yeni latın qrafikalı əlifba uğrunda yorulmadan mübarizə aparan bir vətənpərvər, dilçilik tarixində bir çox sanballı elmi məqalə və monoqrafiyaları ilə tanınmış bir alim, vətən övladlarının daim maarifləndirilməsi yolunda əzmlə çalışan bacarıqlı bir müəllim, çoxsaylı dərslikləri və metodik vəsaitləri ilə təcrübəli metodist, həmçinin dövrünün qəzet və jurnallarında mütəmadi çap olunan görkəmli bir publisist kimi göstərmişdir. Vətən və xalq qarşısında mühüm xidmətləri olan bu görkəmli şəxsiyyətin zəngin irsinin öyrənilməsi qənaətbəxş hesab edilə bilərmi? Buna qısaca nəzər salaq.

Fərhad Ağazadə haqqında ilk dəfə Ə.Seyidovun "Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən" (1956) əsərində məlumat verilir. Daha doğrusu, kitabın "Azərbaycanda Müəllimlər qurultayları" hissəsində qurultayın təşəbbüskarları arasında F.Ağazadənin adı çəkilir. Ə.Seyidov yazır: "Kənd müəllimlərinin ehtiyacları barəsində qurultay nümayəndələrindən F.Ağayev müfəssəl bir layihə təqdim edir" (13, 279). Həmçinin onun tədrisi asanlaşdırmaq üçün ərəb əlifbasının islahını təklif etməsi qeyd olunur. Bu məlumatlar çox az olsa da, hər halda onun xalqın savadlan-ma-sı yolunda öndə gedənlərdən olduğu aydın olur.

F.Ağazadə haqqında ilk müfəssəl məqalə prof. A.Abdullayev tərəfindən yazılmışdır. Onun əvvəlcə "Azərbaycan dili və ədəbiyyatının tədrisi" metodik məqalələr məcmuəsindəki (1958) "Azərbaycan dilinin tədrisi tarixinə dair" məqaləsində, daha sonra "Azərbaycan dilinin tədrisi tarixindən" (1, 307-310) kitabında F.Ağazadənin həyatı və elmi fəaliyyəti haqqında məlumat verilir. Əlifba məsələsindən bəhs edəndə A.Abdullayev yazır: "Bu dövrdə F.Ağazadə fəal və təşəbbüskar bir müəllim və maarifçi kimi yeni latın əlifbasının köhnə ərəb əlifbası üzərindəki üstünlüyünü göstərmək üçün bir sıra elmi-metodik kitablar və dərsliklər yazıb nəşr etdirir. Ona görə də bu görkəmli müəllim və metodist haqqında bir qədər danışmağı lazım bildik" ( 2, 306). Bundan sonra onun həyatı, müəllimlik fəaliyyəti, elmi əsərləri, məqalələri, yeni əlifba uğrundakı mübarizəsi haqqında məlumat verilir. A.Abdullayev ilk təşəbbüskar kimi bu görkəmli elm və maarif xadimi haqqında xeyli məlumat verməyə nail olmuşdur.

Ondan sonra Səadət Hələtai "F. Ağazadənin pedaqoji və elmi fəaliyyəti haqqında" məqaləsində də (8, 71-76) bu görkəmli şəxsiyyətin həyatı, I və II Müəllimlər qurultaylarında çıxışları, "İkinci il", "Ədəbiyyat məcmuəsi" dərslikləri, onun Azərbaycan Yeni Türk Əlifbası Komitəsində, Türkoloji qurultayda yeni əlifba uğrunda mübarizəsi haqqında məlumat verir. Həmçinin onun "Nə üçün ərəb hərfləri türk dilinə yaramır?", "Türk dilini diriltmək və zənginləşdirmək yolları", "Türk dilində vurğu məsələsi", "Boyaqların adları" əsərləri, "İmla qaydalarında ixtisar imkanlarına dair" adlı məqaləsinin adı çəkilir. O, A.Abdullayevin F.Ağazadə haqda məqaləsinə ilk və yeganə təşəbbüs kimi yüksək qiymət verərək yazır: "Halbuki istər A.Abdullayevin məqaləsi, istərsə də F.Ağazadənin həyat fəaliyyətinə həsr etdiyimiz bu kiçik qeydlər Fərhad müəllimin pedaqoji fəaliyyətini işıqlandırmaq üçün əsla kifayət deyildir" ( 8, 76).

Sonrakı illərdə prof. Adil Babayevin "Bəkir Çobanzadə" (5, 195) monoqrafiyasında "Türk qrameri" əsəri təhlil olunarkən B.Çobanzadə ilə müştərək müəllif kimi F.Ağazadənin adı çəkilir. Daha sonra müəllifin "Türksoyun birlik səsi" (6, 72, 107) kitabında Türkoloji qurultayın iştirakçısı kimi F.Ağazadənin qurultaydakı çıxışı və onun haqqında qısa məlumat verilmişdir.

Ə.Abdullayevin "Azərbaycan dili məsələləri" (3, 46-58) kitabında "Azərbaycan əlifbasının tarixindən" adlı hissəsində F.Ağazadənin Q.Qaraqaşlı ilə birgə yazdığı «Очерк по истории развития движения нового алфавита и его достижения» (1928) "Материалы по унификации проектов нового тюрского алфавита» (1927) kitabları və "Yoldaş Məhəmmədağa Şahtaxtlının səhvləri" (1923) məqaləsindən sitatlar gətirir. Təbii ki, latın əlifbasına keçid və onun tarixi haqqında ilk monoqrafiyanın müəllifi olan Fərhad Ağazadəyə istinad etməmək mümkün deyil.

F.Ağazadə haqqında digər məlumata Nazif Qəhrəmanlının "Köhnə-yeni əlifba" kitabında (12, 19) rast gəlirik. Monoqrafiyanın "XX əsrin əvvəlində yazı və əlifba məsələləri" adlı I fəslində yeni əlifba uğrunda fəal mübariz F.Ağazadənin bir neçə yerdə adı çəkilir. Onun M.Mahmudbəyov, S.Əbdülrəhmanzadə, S.Axundzadə, A.Talıbzadə, A.Əfəndizadə ilə birgə yazdığı "İkinci il" dərsliyinin Ə.Hüseynzadə tərəfindən kəskin tənqid olunması, bu tənqidə göstərilən kəskin müqavimət və s. haqda məlumatlara rast gəlirik. Daha sonra "Əlifba islahatına rəhbərlik və təşkilati məsələlər" hissəsində yazırdı: "Azərbaycan əlifbasının təkmilləşdirilməsində, milli əlifba problemlərinin işlənib-hazırlanmasında müəllim və yazıçı F.Ağazadənin mühüm xidmətləri vardır. Onun əlifba məsələsi ilə peşəkar tanışlığının zaman hüdudları da bəllidir: 1905-1930. İstər təşkilati işlərdə, istərsə də Azərbaycan əlifbasının nəzəri problemlərinin müəyyənləşdirilməsində Fərhad Ağazadə əvəzsiz xidmətlər göstərmiş, istər inqilabdan əvvəlki layihələrin, istərsə də sonrakı layihələrin tərtibində iştirak etmişdir" (12, 31). Bu kitabın sonunda M.F.Axundzadənin, M.Şahtaxtinskinin əlifba layihələri ilə yanaşı, F.Ağazadənin 1906-cı ildə tərtib etdiyi əlifba layihəsi verilmişdir.

Yuxarıda göstərilmiş nümunələrdə F.Ağazadə haqda yazılanlar yalnız məlumat xarakteri daşıyır, yəni bu və ya digər məsələ ilə bağlı ya özünün, ya da əsərlərinin adı çəkilir. Bu siyahıya "Azərvbaycan ədəbi dil tarixi (Sovet dövrü)" kitabını (7), "Azərbaycan Sovet Ensiklopediyası"nı (95), "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nı ( 105) da əlavə etmək olar.

Fərhad Ağazadə haqqında yeganə monoqrafiya prof. Əjdər Ağayevin "Fərhad Ağazadənin pedaqoji görüşləri"dir (1987). O, F.Ağazadənin Dövlət Arxiv İdarəsində saxlanılan fondunu, çap olunmuş məqalə və kitablarını araşdırmış, bu görkəmli

şəxsiyyətin həyatı, yeni əlifba uğrunda mübarizəsi, pedaqoji görüşləri, təlim-tərbiyə haqqında fikirləri, dərslikləri, bir sözlə, onun çoxşaxəli yaradıcılığını işıqlandırmışdır. Müəllif XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və pedaqoji fikrə bir nəzər salaraq, Fərhad Ağazadənin rolunu, yerini çox düzgün qiymətləndirmişdir: "F.Ağazadə əməli fəaliyyəti və nəzəri fikirlərinin zənginliyi, orijinallığı və faydalılığı cəhətdən Azərbaycanda məktəb və pedaqoji fikir tariximizin görkəmli simalarındandır... F.Ağazadə Yaxin və Orta Şərqdə əsrlərdən bəri kök salmış ərəb əlifbasının nöqsanlarını göstərən və onu islah etməyə çalışan, bu yolda uzun və gərgin mübarizə aparan böyük şəxsiyyət, bu sahədə M.F.Axundovdan sonra ikinci simadır" (4, 6). Monoqrafiyada yazıldığı dövrün (1987) tələblərinin gözlənilməsi təbii idi. Lakin ümumilikdə Fərhad Ağazadənin pedaqoji fəaliyyətinin hərtərəfli işıqlandırılması baxımından olduqca dəyərli əsərdir.

Türk xalqlarının tarixində mühüm hadisə olan I Türkoloji qurultayın 80 illik yubileyi (2006) ərəfəsində həmin dövrün araşdırılmasına maraq daha da artdı və bu sahədəki durğunluq aradan qalxdı. Həmin illərdə Fərhad Ağazadənin latın əlifbası uğrunda mübarizəsini, onun I və II Müəlimlər qurultayında, I Türkoloji qurultayda iştirakını, rolunu müfəssəl araşdıran İsaxan İsaxanlı olmuşdur. O, "Azərbaycanda latın əlifbasına keçid" (2005), "F.Ağazadə Ümumittifaq Mərkəzi Yeni Türk Əlifba Komitəsində" ( 2006), "Azərbaycan Yeni Türk Əlifba Komitəsi və savadsızlığın ləğv edilməsi kampaniyası" (2006) məqalələrində latın əlifbasına keçmə prosesinin tarixinə nəzər saldıqdan sonra F.Ağazadənin bu işdə müstəsna rolu, mövqeyi, həyatı ilə bağlı maraqlı fikirlər irəli sürmüşdür. Bu araşdırmalar F.Ağazadənin latın əlifbasına keçid uğrunda ardıcıl və sistemli mübarizə aparan bir şəxsiyyət kimi tanınmasında əhəmiyyətlidir. İ.İsaxanlı F.Ağazadənin yeni əlifba uğrunda mübarizəni 3 dövrə: M.F.Axundov, Şahtaxtlı Məhəmmədağa və İntibah dövrünə ayırmasını göstərərək, III dövrü çox doğru olaraq F.Ağazadə dövrü adlandırır. Əlbəttə, həmin dövrdə bir çox şəxsiyyıtlərin latın əlifbası uğrunda mübarizəsində rolu qeyd edilməlidir. Lakin " XX əsrdə bu ideyanın həyata keçirilməsi yolunda ən barışmaz mübarizə aparan əsas sima F.Ağazadə olmuşdur. F.Ağazadənin bu yolda tarixi xidməti ondan ibarətdir ki, o, ardıcıl və planlı mübarizəsi nəticəsində onilliklər boyu yalnız ideya olaraq qalmış yeni əlifbanın praktik tətbiqinə nail ola bildi" ( 9, 15).

2006-cı ildə prof. K.V.Nərimanoğlu və Ə.Ağakişiyevin tərtib etdiyi "1926-cı I Bakı Türkoloji qurultayı" kitabında Türk dünyasının, o cümlədən Azərbaycanın mədəniyyət, elm və siyasət tarixində mühüm rol oynayan 1926-cı il I Bakı Türkoloji Qurultayının stenoqramı (rus dilindən tərcümə), biblioqrafiya və foto-sənədlər təqdim olunmuş, həmçinin F.Ağazadənin qurultaydakı "Türk dilində imla qaydaları" adlı məruzəsi, "Yeni yol " qəzetində nəşr olunmuş "Vahid imlamız olmalıdır" və "Yeni əlifbanın Şərqdəki nəticələri" məqalələri tam verilmişdir. (13, 431)

Beləliklə, yuxarıda göstərdiyimiz bütün mənbələrdə F.Ağazadənin həyatı, pedaqoji fəaliyyəti və görüşləri, həmçinin latın əlifbası uğrunda mübarizəsi əks etdirilmişdir. Onun dilçi və metodist kimi fəaliyyəti kölgədə qalmışdır. Halbuki onun dilçi kimi çox maraqlı əsərləri: "İmla üçün lisani-əsas", "Türk dilini diriltmək və zənginləşdirmək yolları", " Boyaqların adları", "Türk dilində vurğu məsələsi", "Nə üçün ərəb hərfləri türk dilinə yaramır?", B.Çobanzadə ilə birgə "Türk qrameri", Q.Qaraqaşlı ilə birgə «Очерк по истории развития движения нового алфавита и его достижения», «Материалы по унификации проектов нового алфавита»;

məqalələri: "Türk adları, ölçüləri və təqvimi" ," Qamuslarda iki-üç imla", "Nə üçün coğrafiya və tarix adları türkləşdirilməmişlər?", "Lüğətlərimizdən biri"; dərslikləri: "İkinci il", "Ədəbiyyat məcmuəsi", "Yeni Türk əlifbası", "Zəhmət məktəbi", "Savada doğru" (müştərək müəlliflərlə) və s. vardır. Göründüyü kimi, o, dilçiliyin müxtəlif mövzularına: orfoqrafiya, əlifba, vurğu, lüğətçilik, toponimikaya, dilçilik və əlifba tarixinə toxunaraq, özünü görkəmli dilçi, çoxsaylı dərsliklərin müəllifi olmaqla bacarıqlı metodist kimi sübut etmişdir. Odur ki, çoxşaxəli F.Ağazadə irsinin bu araşdırılmamış sahələrinə işıq salmaq vacib və zəruridir.

## ƏDƏBİYYAT


1. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən . Bakı: Maarif, 1966, 332 s.
2. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixinə dair // Azərbaycan dili və ədəbiyyatının tədrisi metodik məqalələr məcmuəsi. I buraxılış. Bakı: 1958, 15-28 s.
3. Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri. Bakı: BDU, 1992, 331 s.
4. Ağayev Ə. Fərhad Ağazadənin pedaqoji görüşləri. Bakı: Maarif, 1987, 122 s.
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. I c. Bakı:Elm, 2004, 440 s.
6. Babayev A. Bəkir Çobanzadə. Bakı: Şərq-Qərb, 1998 , 311 s.
7. Babayev A. Türksoyun birlik səsi. Bakı: Təhsil, 2006, 345 s.
8. Hələtai S. Fərhad Ağazadənin pedaqoji və elmi fəaliyyəti haqqında // Azərbaycan məktəbi jurnalı, 1965 № 4 , s. 71 -76.
9. İsaxanlı İ. Azərbaycanda latın əlifbasına keçid. Tarixə qısa baxış və Fərhad Ağazadə // Xəzər xəbər jurnalı, 2005, № 197 (8-13); 198 (8-13); 199 (12-17).
10. İsaxanlı İ. Fərhad Ağazadə Ümumittifaq Mərkəzi Yeni Türk Əlifba Komitəsində // Xəzər xəbər jurnalı, № 205 (17-25), 206 (25-31), 207 (13-17), mart, aprel 2006.
11. İsaxanlı İ. Azərbaycan yeni türk əlifba komitəsi və savadsızlığın ləğv edilməsi kampaniyası. Xəzər xəbər jurnalı, 2006, № 218, 15 noyabr s. 14-19.
12. Qəhrəmanlı N. Köhnə-yeni əlifba. Bakı: Elm, 2002, 119 s.
13. Nərimanoğlu K.V., Ağakişiyev Ə. 1926-cı il I Bakı Türkoloji Qurultayı. Bakı: Çinar-Çap, 2006, 570 s.
14. Seyidov Ə. Azərbaycan pedaqoji fikrin inkişaf tarixindən. Bakı: Maarif, 1958, 299 s.


## ВЗГЛЯД НА ИССЛЕДОВАНИЕ ТВОРЧЕСКОГО НАСЛЕДИЯ ФАРХАДА АГАЗАДЕ


**Е.В.ГАХРАМАНЛЫ**



**РЕЗЮМЕ**

В этой статье дается взгляд на исследование богатого наследия активного общественного деятеля, видного языковеда, опытного педагога, передового методиста, публициста и неустанного борца за новый алфавит с латинской графикой Фархада Агазаде.


## THE INVESTIGATION OF FARHAD AGAZADEH'S HERITAGE


**Y.V.GAHRAMANLY**



**SUMMARY**

This article deals with the investigation of the prominent linguist, Farhad Agazadeh's heritage. Farhad Agazadeh was not only an active public figure, a passionate teacher, an experienced methodist, but also an irrepressible campaigner of a new alphabet with a Latin script. The author of the article studies Farhad Agazadeh's rich and colorful career.